# Düzgün strategiya, ardıcıl islahatlar



***Prezident İlham Əliyevin rəhbərliyi ilə son 18 il ərzində respublikamızda uzunmüddətli, düzgün strategiya nəticəsində dinamik yüksəlişə nail olunub. Ölkə rəhbərinin Azərbaycana rəhbərliyinin bütün mərhələlərində sosial-iqtisadi islahatların həyata keçirilməsinə mühüm önəm verilib. Bu baxımdan, pandemiya şəraitində reallaşdırılan tədbirlər də diqqət çəkib. Bunun məntiqi nəticəsidir ki, hazırda respublikamızda sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişafı üçün etibarlı zəmin yaradılıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə böhranı və iqtisadi geriləmə şəraitində belə, Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan mənfi iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam icra edilib. Bütün bu uğurlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi layihələri xüsusi önəm kəsb edib.***

Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq-iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

Ötən illərdə Azərbaycanın tərəqqisi ilə bağlı həyata keçirilən layihələr bir sıra siyasi dəyişikliklər və struktur yenilənmələri ilə müşayiət olunub. Bütün bunların fonunda isə respublikada siyasi transformasiya mühiti getdikcə şəffaflaşıb. Struktur və kadr islahatlarının davamlı xarakter alması özünü qabarıq büruzə verib. Bütün bunlarla bərabər, beynəlxalq müşahidəçilər tərəfindən də yüksək qiymətləndirilən korrupsiya ilə mübarizə tədbirləri daha da gücləndirilib, bu istiqamətdə dövlət qurumlarının hər bir pilləsində şəffaflığın qorunması diqqət mərkəzində saxlanılıb. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə pensiya, ünvanlı yardım, əlilliyə görə müavinətlərin verilməsi, habelə məşğulluq sahələrində şəffaflığın, həmçinin sosial ədalətin tam təmin olunması, bürokratiya, süründürməçilik, həmçinin korrupsiya, rüşvətxorluq hallarının aradan qaldırılması, məmur-vətəndaş təmasının minimuma endirilməsi ilə bağlı vaxtaşırı ciddi, önəmli addımlar atılıb. Gerçəkləşdirilən islahatlar, yeniləşmələr ölkənin gələcək dayanıqlı inkişafının şərtləndirilməsi, ən başlıcası isə yoxsulluğun azaldılması məqsədi daşıyıb.

Son 18 ildə Azərbaycanın regionlarının dinamik inkişafı da daim diqqətdə saxlanılıb. Prezident İlham Əliyev bu məsələyə hər zaman mühüm önəm verib. Dövlətimizin başçısı vaxtaşırı rayonlara səfər edib, yerlərdə investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, bütün bunların nəticəsində isə əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə maraqlanıb, qarşıya çıxan çətinliklərin aradan qaldırılması məqsədilə icra strukturlarına zəruri tapşırıq və tövsiyələrini çatdırıb.

Görülən işlər deməyə əsas verir ki, Azərbaycan son 18 ildə dövlətimizin başçısının rəhbərliyi ilə dinamik inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib, respublikamız öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

İkinci Qarabağ müharibəsində Azərbaycan tarixi zəfərə nail olmaqla, haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa etməklə bölgədə yeni reallıqlar yaratdı. Başqa sözlə, xalqımızın parlaq, möhtəşəm qələbə qazanması ölkəmizin siyasi nüfuzunun, iqtisadi-hərbi qüdrətinin təsdiqinə çevrildi, eyni zamanda, regionumuzda tamamilə yeni geosiyasi və geoiqtisadi reallıqları şərtləndirdi. Bununla da Azərbaycan dünyada öz sözü, mövqeyi, müstəqil xarici siyasəti olan ölkə imicini daha da möhkəmləndirdi. Eyni zamanda, Vətən müharibəsində Azərbaycanın ədalətli mövqeyinin dost və qardaş ölkələr tərəfindən müdafiə edilməsi, siyasi və mənəvi dəstək göstərilməsi ölkəmizin yeni güc mərkəzləri və yeni ittifaqlara qoşulması zərurətini meydana çıxardı. Şübhəsiz ki, bu reallıq təhlükəsizlik və tərəfdaşlıq müstəvisində maraqların koordinasiya edilməsi və uzlaşdırılmasından irəli gəldi. Azərbaycan, Türkiyə və Pakistan parlamentləri arasında imzalanan Bakı Bəyannaməsi də məhz bu istiqamətdə atılan mühüm addım kimi tarixi hadisəyə çevrildi.

Bugünkü gerçəkliklər qalib ölkəmizin sözünün daha kəsərli olmasını, dost ölkələrin sayının günbəgün artmasını və beynəlxalq hüququn da onun yanında olmasını reallaşdırır, respublikamızı regionda sülhün, təhlükəsizliyin, açıq, konstruktiv, bərabərhüquqlu əməkdaşlığın, sözün əsl mənasında, qarantı kimi çıxış edən dövlət kimi tanıdır.

Prezident İlham Əliyev təkcə Ermənistana deyil, həm də onun havadarlarına 44 günlük tarixi dərsdən nəticə çıxartmağın, yeni geosiyasi reallığın şərtlərini qəbul etməklə işğalçının yaşadığı dərin siyasi, sosial-iqtisadi böhrandan xilas etməyin mümkünlüyünü dəfələrlə xatırladıb. Dövlətimizin başçısı, həmçinin müxtəlif vaxtlardakı bəyanatları ilə Qarabağ münaqişəsinin artıq bitdiyini bildirib, “Şuşa Bəyannaməsi”nə və “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” 2021-ci il 7 iyul tarixli Fərmana əsaslanan mövqeyini vurğulayıb, Zəngəzur dəhlizinin siyasi-iqtisadi əhəmiyyətini diqqətə çatdırıb.

İndi düşmən tərəfindən dağıdılan, tar-mar edilən yaşayış sahələrimizdə genişmiqyaslı bərpa-quruculuq layihələri reallaşdırılır. Yüksək sürətlə aparılan tikinti işləri ilə Azərbaycan Vətən müharibəsində olduğu kimi, Qarabağın bərpasında da gücünü bütün dünyaya nümayiş etdirir.

Dövlətimizin başçısının rəhbərliyi ilə erməni barbarlığının qurbanı olan yaşayış sahələrində hazırda mühüm strateji obyektlər, müəssisələr istifadəyə verilir, yenilərinin təməli qoyulur, yüksək texnologiyaların tətbiqinə start verilir, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində önəmli tədbirlər gerçəkləşdirilir. Bütün bunlar dövlətimizin başçısının qəsbkardan xilas olunan rayonlara səfərləri ilə öz təsdiqini tapır.

Yeri gəlmişkən, Qarabağda genişmiqyaslı bərpa-quruculuq işlərinin icrası Azərbaycanın güclü iqtisadi potensiala malik dövlət olmasını göstərir. Bu, Prezident İlham Əliyevin işğaldan azad edilən rayonlara son səfərlərində də aydın nəzərə çarpır.

Bu gün işğalçının xarabalığa çevirdiyi ərazilər tikinti meydanı kimi diqqət çəkir. Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri sürətlə həyata keçirilir, Ermənistanın işğalı zamanı yerlə-yeksan edilən şəhər və kəndlərimiz, dağıdılan tarixi, mədəni və dini irsimiz bərpa olunur. Avtomobil yollarının tikintisinə xüsusi önəm verilir. Naxçıvan Muxtar Respublikasına çıxışa imkan verən Zəngəzur nəqliyyat dəhlizinin Azərbaycan tərəfindəki Horadiz–Cəbrayıl–Zəngilan– Ağbənd hissəsinin tikintisi sürətlə aparılır. Bununla bərabər, Böyük Qayıdış proqramı çərçivəsində müasir texnologiyalara əsaslanan yaşayış məntəqələrinin inşası diqqətdə saxlanılır.

Azərbaycanın reallaşdırdığı uğurlu enerji siyasəti nəticəsində bu gün ölkəmiz özünün enerji təhlükəsizliyini təmin etməklə yanaşı, qonşu və Avropa ölkələri üçün də etibarlı enerji təminatçısı kimi tanınır. Respublikamızın bütün regionlarında olduğu kimi, işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurda da elektrik stansiyaları və yarımstansiyaları qurulur. Prezident İlham Əliyevin son səfəri zamanı da Ağdam rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq “Ağdam-1” və “Ağdam-2” elektrik yarımstansiyalarının, “Qarabağ” Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin, Ağcabədi rayonunda “Ağcabədi” yarımstansiyasının açılışları, düşməndən təmizlənən ərazilərdə enerji kompleksinin bərpası ölkəmizdə aparılan enerji siyasətinin tərkib hissəsi kimi diqqət çəkir.

Qarabağ və Şərqi Zəngəzurda zəngin bərpaolunan enerji mənbələrinin işə salınması da qarşıda mühüm vəzifə kimi durur. İşğaldan azad olunan ərazilərdə “Yaşıl enerji zonası” yaradılmasına dair ölkə Prezidentinin müvafiq tapşırığına əsasən, Yaponiyanın “TEPSCO” şirkəti cəlb edilməklə bununla bağlı konsepsiya sənədi hazırlanaraq hökumətə təqdim olunub. Konsepsiya çərçivəsində əhalinin məskunlaşması və iqtisadi inkişaf ssenarilərindən asılı olaraq enerji təchizatı variantları dəyərləndirilib. Bundan əlavə, ərazinin enerji potensialı nəzərə alınmaqla tətbiq ediləcək müxtəlif “yaşıl texnologiyalar” üzrə təhlillər aparılıb. Konsepsiya çərçivəsində müəyyənləşdiriləcək təklif olunan ssenari üzrə daha təfsilatlı 17 təhlil və təklifləri özündə əks etdirəcək Baş plan sənədinin bu ilin birinci yarısında hazırlanması nəzərdə tutulub.

Energetika Nazirliyi və tabeliyindəki qurumlar tərəfindən ötən il görülmüş işlərə dair hesabatda bildirilir ki, “Yaşıl enerji zonası”nın yaradılmasına dair tapşırığın icrası çərçivəsində, düşməndən təmizlənən bölgələrdə günəş, külək, biokütlə, termal, geotermal və digər bərpaolunan enerji potensialının öyrənilməsi istiqamətində araşdırmalar aparılır. Bununla bərabər, həmin ərazilərdə aparılacaq quruculuq işlərində məhz “yaşıl enerji” layihələrinə üstünlük verilir. İlkin qiymətləndirməyə əsasən, bölgənin günəş enerjisi potensialı 7200 MVt və külək enerjisi potensialı 2000 MVt olaraq müəyyənləşdirilib.

Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq layihələri çərçivəsində bu bölgələrin sənayeləşdirilməsi də xüsusi diqqətdə saxlanılıb. Dövlətimizin başçısının 2021-ci il 28 may tarixli fərmanı ilə 190 hektar ərazidə Ağdam Sənaye Parkı yaradılıb. Sənaye parkının prioritet fəaliyyət istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların və sair təşkili müəyyənləşdirilib. Parkda quruculuq işlərinin mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulub. İlk olaraq sənaye zonası ərazisinin minalardan və hərbi sursatlardan təmizlənməsi işlərinə başlanılıb və artıq 190 hektar ərazinin 74 hektardan artıq hissəsi təmizlənib.

Xatırladaq ki, fevralın 13-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Ağdam Sənaye Parkında iki müəssisənin təməli qoyulub.

“Smartpoint” MMC tərəfindən artıq inşasına başlanılan investisiya dəyəri 9,1 milyon manatlıq müəssisədə alternativ və bərpa olunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəkləri və digər qurğular istehsal ediləcək. BuradaTürkiyə və İtaliya texnologiyaları quraşdırılacaq və 80 daimi iş yeri yaradılacaq. Digər müəssisədə isə il ərzində 700 min kvadratmetr xalça istehsal olunacaq.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***